# Neftin nəqlə hazırlanması prosesinin əsasları

| | |
|---|---|
| Fənn: | Neftin nəql prosesinə hazırlanması |
| Səviyyə: | Baza, ümumi əsaslar |
| Müddət: | 5 gün |
| Təlimatçı: | t.e.n., dosent Natiq Səfərov |

Bu intensiv beş günlük baza kursları neftin nəqlə hazırlanması prosesinin əsaslarını özündə cəmləyir.

Tədris edilən mövzular, yataqlardan hasil edilən müxtəlif çeşidli neftlərin nəqlə hazırlanması prosesinin mahiyyəti, zərurəti və hazırlanma keyfiyyətinə qoyulan əsas tələblər haqqında kursu əhatə edir.

Kursun iştirakçıları neftin nəqlə hazırlanması barədə zəruri bilikləri və ümumi əsasları öyrənib əldə edəcək, sonda isə elmi-tədqiqat laboratoriyasında aparılan təcrübələrlə əyani tanış olacaqlar.

**Nəzərdə tutulur:**

Bu sahədə çalışan mühəndislər, operatorlar, texnik və laborantlar üçün nəzərdə tutulur.

**Öyrəniləcək material :**

- Neftin nəqlə hazırlanmasının zərurəti ;
- Neftlərin fiziki-kimyəvi göstəricilərinə qoyulan əsas tələblər;
- Neftin qruplara ayrılması ;
- Neftin tərkibində suyun və kükürdün kütlə payının, xlor duzlarının, mexaniki qarışıqların, doymuş buxar təzyiqinin, asfalten, parafin, qətranların kütlə payının təyini ;
- Su-neft emulsiyaları və onların növləri ;
- Neftin sudan ayrılma üsulları ;
- Deemulqatorlar barədə məlumat ;
- Neftin qazsızlaşdırılması üsulları.

**Kursun tərkibi:**

- Neftin nəqlə hazırlanması ;
- Hazırlanma keyfiyyətinə qoyulan əsas tələblər ;
- Neftin tipinə qoyulan tələblər , onun sıxlığının və tərkibindəki kükürdün miqdarının ASTM standartlara görə təyini ;
- Su-neft emulsiyaları barədə məlumat ;
- Neftdən suyun ayrılması üsulları ;
- Neftin stabilləşdirilməsi (deqazasiyası) ;
- Elmi-tədqiqat laboratoriyası ilə əyani tanışlıq;

**Tədrisi aparan təlimatçı haqqında:**

Natiq Muxtar oğlu Səfərov Azərbaycan Dövlət Neft Akademiyasını bitirmişdir. 20 ildən artıq neft-qaz sənayesində elmi-tədqiqat, neft-qaz məhsullarının keyfiyyət göstəricilərinin təyini və sertifikatlaşdırılması, neft və qazın yığılması, hazırlanması və nəqli istiqamətlərində təcrübəyə malikdir. Ölkə daxili və xaricdə nəşr olunan 65 elmi işin, o cümlədən 2 rəhbər sənədin, 1 normativ sənədin , 1 kitabın, 10 patentin və 51 məqalənin müəllifidir. Texniki elmər namizədi(1992) , dosentdir( 2010).

Əmək fəaliyyəti: 5 il Azərbaycan Net akademiyasının " Neft və qaz yataqlarının işlənməsi və istismarı" laboratoriyasında mühəndis, elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi, 1997-ci ildən bu günə qədər «Neftqazelmitədqiqatlayihə» İnstitutunda böyük elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışır. Hazırda «Neft və qazın yığılması, hazırlanması və nəqli » laboratoriyasının aparıcı elmi işçisidir.

Azərbaycan, rus və ingilis dillərini bilir. BP-nin neftçi-alimlər üçün təşkil etdiyi «British Counsil» ingilis dili və "Zygon Caspian Consulting" təşkilatının «İSO/APİ Q1 standartları üzrə ikili sertifikasiya» kurslarını bitirmişdir.

Əmək fəaliyyəti ilə əlaqədar əməkdaşlıq etdiyi müştərək müəssisə və əməliyyat şirkətləri : Suraxanı OYL, Salyan OYL, Neftçala OYL, Sirvan OYL, Binəqədi OYL, "Qarasu" ƏŞ, "Azgerneft" MM.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu
AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a